# ƏKBƏROV AKİF ABBAS OĞLU



Əkbərov Akif Abbas oğlu 2 fevral 1952-ci ildə Cəbrayıl rayonunun Balyand kəndində anadan olmuşdur. 1969-cu ildə 1 saylı Beyləqan şəhər orta məktəbini bitirmişdir. 1970-ci ildə ordu sıralarına çağırılmışdır. 1972-ci ildə ordudan tərxis olunur. O, 1974-cü ildə Beyləqan rayon Daxili İşlər Şöbəsində polis nəfəri kimi fəaliyyətinə başlayır. Daha sonra Akif Əkbərov Polis Şöbəsinin dövlət avtomobil müfəttişliyi bölməsində yol-patrul xidməti müfəttişi vəzifəsində işləməyə başlamışdı. 1991-ci il avqustun 5-i Akif Əkbərov və Beyləqan rayon Polis Şöbəsinin bir qrup digər əməkdaşı Kəlbəcər rayonunun “Sarı yer” yaylağındakı mülki şəxslərin təhlükəsizliyini təmin etmək üçün oraya ezam olunur. Avqustun 12-si ermənilər Cermuq şəhəri tərəfdən “Sarı yer” yaylağına hücuma keçirlər. Əhalini qorumaq üçün polis işçilərimiz döyüşə girirlər. Akif elə döyüş mövqeyi tutmuşdu ki, ermənilər başlarını qaldırmağa belə macal tapmırdılar. Təxminən 6 saat davam edən bu döyüşdə Akif Əkbərov xüsusilə fərqlənir. Düşmənin xeyli canlı qüvvəsi məhv edilir. Lakin bu döyüşdə Akif də qəhrəmancasına həlak olur. Beyləqan rayonunda dəfn edilmişdir. Ailəli idi. Beş övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Əkbərov Akif Abbas oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı”adına layiq görülmüşdür. Beyləqan şəhərində büstü qoyulub, küçələrdən biri onun adını daşıyır.